# GÖRKƏMLİ ALİM, ƏMƏKSEVƏR İNSAN

2021-ci il yanvar ayının 23-də Azərbaycan Milli Geofizika Komitəsi İctimai Birliyinin, Avropa-Asiya Geofizika Cəmiyyətinin, Amerika Neftçi Geoloqlar Cəmiyyətinin Azərbaycan bölməsinin üzvü geologiya-meneralogiya elmləri doktoru Baba Manaf oğlu Qarayevin 90 yaşı tamam olmuşdur. Məlum səbəblərdən həmin vaxt Baba müəllimi yalnız telefon zəngləri və dövrü mətbuat, o cümlədən



"Azərbaycanda geofizika yenilikləri" jurnalı vasitəsilə təbrik etmişdik. Bu yaxınlarda Baba müəllimin 91 yaşı tamam olması münasibəti ilə Azərbaycan Milli Geofizika Komitəsinin İctimai Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə kiçik bir toplantı keçirildi. Bakıda yerləşən məkanların birində çay süfrəsi arxasında keçirilən toplantıya Baba müəllimin ən yaxın silahdaşları və dostları toplanmışdılar.

Toplantını giriş sözü ilə Azərbaycan Milli Geofizika Komitəsinin İctimai Birliyinin sədri, "Azərbaycanda geofizika yenilikləri" jurnalının baş redaktorunun müavini, Prezident təqaüdçüsü, Baba müəllimin əmək fəaliyyətində onunla uzun müddət qarşılıqlı əməkdaşlıq etmiş Şahvələd Köçərli açdı. O, toplantı iştirakçılarını salamlayaraq, Baba müəllimin keçdiyi həyat yolu, onun elmə və istehsalata verdiyi töhvələr barədə danışdı. Bundan sonra Şahvələd müəllim özünəməxsus tərzdə, Sovet dövründə idarə və müəssisə rəhbərləri, o cümlədən tanınmış ziyalıların iştirakı ilə baş vermiş bir neçə maraqlı əhvalat danışdı.

Sonra söz Geofizika və Geologiya İdarəsinin rəisi, "Azərbaycanda geofizika yenilikləri" jurnalının baş redaktoru Elçin Şirinova verildi. Elçin müəllim də öz növbəsində Baba müəllimi ad günü münasibətilə təbrik edti və ən xoş arzularını ona çatdırdı. O, Baba müəlimin Azərbaycanda geofiki, xüsusilə də seysmik kəşfiyyat işlərinin təşəkkül tapmasında və inkişafında xüsusi rolu olduğunu qeyd etdi. E.Şirinov Baba müəllimin bu gün də gənclik eşqi ilə çalışdığını, müstəqil Azərbaycan Respublikasının neft strategiyasının gerçəkləşməsində öz xidmətlərini əsirgəmədiyini, gənclərə zəhmətsevərlik nümunəsi göstərdiyini xüsusi vurğuladı. Nümünə olaraq, Baba müəllimin bu yaxınlarda "Azərbaycanda geofizika yenilikləri" jurnalında Respublikamızda geofiziki kəşfiyyat işlərinin tarixinə, müasir vəziyyətinə və inkişaf perspektivlərinə həsr olunmuş məqaləsini göstərdi. Sonra o, əlavə etdi ki, hansı vəzifədə işləməsindən asılı olmayaraq, Baba müəllim öz vəzifə öhdəliklərinə həmişə diqqət və məsuliyyətlə yanaşmış, üzərinə düşən işləri vaxtında və qüsursuz yerinə yetirmişdir. Özünə qarşı tələbkarlığı və apardığı tədqiqatlara məsuliyyətlə yanaşmağı onun peşəkar bir mütəxəssis kimi püxtələşməsinə səbəb olmuşdur. Tutduğu vəzifədən asılı olmayaraq, o həmişə əməksevərliyi, yüksək təşkilatçılıq qabiliyyəti və bacarığı ilə ətrafındakılara nümunə olmuşdur.

E.Şirinov əlavə etdi ki, "Azərbaycan Milli Geofizika Komitəsinin İctimai Birliyinin üzvləri, bütün yaxın dost və həmkarlarınız Sizi - geofizika elmində böyük xidmətləri ilə tanınmış, təcrübəli və zəhmətkeş alimi şanlı yubeliyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, elmi fəaliyyətinizdə yeni-yeni nailiyyətlər



arzulayır". Ş.Köçərli və E.Şirinov Baba müəllim üçün hazırlanmış "ünvanı" ona təqdim etdilər.

Təqdimatdan sonra Geofizika və geolojiya idarəsənin indiki "Kəşfiyyatgeofizika" İstehsalat bölümündə uzun müddət müxtəlif vəzifələrdə (sıravi mühəndisdən - idarə rəisinə qədər) işləmiş, seysmik məlumatların emalı istiqamətində bir sira proqramların müəllifi, prezident təqaüdçüsü Namaz Yusubov çıxış etdi. O, Azərbaycanda seysmik kəşfiyyatın tənzimlənən yönəldilmiş qəbul üsulunun ilk dəfə Baba müəllimin rəhbərliyi ilə işlənib hazırlanması, onun müxtəlif neftli-qazlı rayonlarda geniş tətbiqi və alınan müsbət geoloji nəticələri barədə danışdı. N.Yusubov Baba müəllimin təvəzökar bir insan olduğunu xüsusi vurğuladı və qeyd etdi ki, Geofizika ETİ-də işlədiyi müddət ərzində Baba müəllim seysmik kəşfiyyatın nəzəri və metodik məsələlərinin həlli, yeni texnologiyaların işlənib-hazırlanması, onların geniş tətbiq edilməsi istiqamətində xüsusi fəallıq göstərmişdir. Ötən əsrin 70-80-ci illərində milli kadrların az olduğu bir dövrdə Baba müəllimin özündə cəsarət taparaq, seysmik kəşfiyyatda yeni texnologiyaların işlənib-hazırlanması kimi ağır və məsuliyyətli bir işi öz üzərinə götürməsi və bu vəzifənin öhdəsindən layiqincə gəlməsi xüsusi vurğulandı. Sonda N.Yusubov Baba müəllimə öz xoş arzularını tanınmış ədiblərimizin bir neçə misraları ilə çatdırdı.

Ümumiyyyətlə, qeyd etmək istəyirəm ki, toplantı çox səmimi və qeyri-rəsmi şəraitdə keçirilirdi. Hamı öz xatirələri ilə bölüşür, bu və ya digər tədqiqatların aparılması zamanı baş vermiş məzəli və yaddaqalan hadisələrdən danışırdı. Baba müəllimin iştirakçısı olduğu hər bir hadisə onun tərəfindən yerindəcə "korrektə" olunurdu.

ADNSU-nun professoru Tofiq Əhmədov Baba müəllimi təbrik edərək, onun fiziki-seysmik modelləşdirmə işləri ilə də məşgul olduğunu, antiklinal və qeyri-antiklinal neft yataqlarının proqnozlaşdırılması metodikasını işləyib hazırlayaraq Azərbaycanın müxtəlif rayonlarında kəşfiyyat sahələrində tətbiq etdiyini vurğuladı. Tofiq müəllim hələ o vaxtlar ali məktəb ocaqları ilə istehsalatın sıx vəhdətindən söz açdı. O, Baba müəllimin elmi-istehsalat təcrübəsinə gələn gənclərə geofizikanın incəliklərini necə böyük həvəslə öyrətdiyinin şahidi olduğunu qeyd etdi. T. Əhmədov Baba müəllimin ADNSU-nun "Geofizika" kafedrasının müəllim heyəti ilə daim təmasda olduğunu, onlarla daim fikir mübadiləsi apardığını xüsusilə vurğuladı.

Sonra söz - bu sətirlərin müəllifinə verildi. Mən də öz çıxışımda Baba müəllimin gənclərə necə qayğı, eyni zamanda tələbkarlıqla yanaşdığını söylədim. Qeyd etdim ki, şəxsən mənim dissertasiya işimin ərsəyə gəlməsində Baba müəllimin böyük rolu olmuşdur. Bundan sonra mən T.Əhmədovun təklifi ilə tanınmış şair V.Əzizin "Mənə yüz il ömür arzulamayın" şerindən aşağıdakı misraları söylədim.

***Mənə elə ömür arzulayın ki,***
***Ölüncə ümmantək çağlaya bilim,***
***Qapı - pəncərəni öz evimdəki***
***Özüm aça bilim, bağlaya bilim.***
***Sağlıqlar deyəndə hərdən şənimə,***
***Nə özüm kövrəlim, nə sizə gülüm,***
***Tanrıdan elə bir ömür diləyin mənə,***
***Hər vaxt sevə bilim, sevilə bilim.***

Sonra əlavə etdim ki, "Baba müəllim biz hamımız - bütün geofizik və geoloqlar Sizi sevir və dərin hörmət bəsləyirik. Siz bizim üçün örnəksiniz. Allah Sizə can sağlığı versin və həmişə öz evinizin qapı-pəncərəsini özünüz açıb bağlayasınız"!

Geofizika ETİ-nin uzun müddət Həmkarlar İttifaqı Komitəsinin sədri işləmiş L.Sultanov öz çıxışında Baba müəllimlə bağlı xatirələrdən söz açdı. Hələ Sovet dövründə İnstitutun Moskvaya tabe olduğu bir zamanda Baba müəllimin əsl vətənpərvər və digər millətlərin nümayəndələri ilə müzakirələrdə (bəzən mübahisələrdə) daim öz fikri olduğunu söylədi. L.Sultanov Geofizika ETİ-nin direktoru işləmiş R.Rəhmanovun səhhəti ilə əlaqədar toplantıya qatıla bilmədiyini, toplantı iştirakçılarına və şəxsən Baba müəllimə onun salamlarını və xoş arzularını çatdırdı.

Bir müddət Geofizika ETİ-nin elmi işlər üzrə direktor müavini işləmiş, Baba müəllimlə birlikdə bir sıra mövzular üzrə müştərək hesabatlar hazırlayan, hazırda Bakı Dövlət Universitetində pedaqoq kimi fəaliyyət göstərən Vaqif Qədirov da Baba müəllimlə bağlı xoş xatirələrindən danışdı. O, Baba müəllimin, istər elmi işlər üzrə direktor müavini (onda V. Qədirov elmi katib işləyirdi), istərsə laboratoriya müdiri işləyən zaman həmişə öz öhdəsinə düşən işlərə məsuliyyətlə yanaşmasının şahidi olduğunu qeyd etdi.

Burada bir haşiyə çıxmaq yerinə düşərdi. Baba müəllim 1992-ci ildə Geofizika ETİ-yə elmi işlər üzrə direktor müavini təyin olunmuşdu. 1994-cü ildə isə o, ərizə yazaraq, elmi işlərlə məşğul olmaq və doktorluq dissertasiya işini tamamlamaq üçün tutduğu vəzifəsindən azad olunaraq, yenidən laboratoriya müdiri vəzifəsinə təyin olunmasını xahiş etmişdir. Rəhbərliyin və yaxın dostlarının təkidlərinə və dilə tutmalarına baxmayaraq, Baba müəllim öz fikrindən dönməmiş və əvvəllər rəhbərlik etdiyi laboratoriyaya qayıtmışdır. Cəmi bir il sonra Baba müəllim doktorluq dissertasıyasını uğurla müdafiə edərək geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsini almışdır. Bu kiçik haşiyə Baba müəllimin dürüstlüyünün bariz nümunəsidir.

Bakı Ali Neft Məktəbinin direktor müavini Oqtay Rzayev də dissertasiya işinin hazırlanması və müdafiəsi zamanı Baba müəllimin ona göstərdiyi dəstəkdən danışdı. O, qeyd etdi ki, mənim dissertasiya işimin mövzusu geologiyaya daha yaxın olmasına baxmayaraq, Baba müəllim həmişə öz dəyərli məsləhətləri ilə dissertasiya işinin sanballı şəkildə hazırlanmasına köməklik göstərmişdir.

Sonra söz "sonbeşik", Baba müəllimin əsl davamçısı, onun ideyalarının həyata keçirilməsində yorulmadan çalışan "Nefqazelmitədqiqatlayihə" İnstitutunun Geofizika Departamentində "Seysmik kəşfiyyat" laboratoriyasının müdiri Tarverdi Niyazova verildi. T.Niyazov yerinə yetirdikləri işlər zamanı Baba müəllimin zaman və dərinlik kəsilişlərinin necə dəqiqliklə incələdiyini, hər xırda detallara fikir verdiyini qeyd etdi. Bunun nəticəsi kimi Baba müəllimlə birlikdə ilk dəfə Mezazoy çökütülərinin daxilindən informasiya almağın mümkünlüyünü göstərdiklərini və dissertasiya işinin belə bir çətin, lakin aktual problemə həsr olunduğunu söylədi. İlk vaxtlar bu ideyanı bir coxları qəbul etmədiyindən onun həyata keçirilməsi, xüsusilə də bu mövzuda dissertasiya işinin müdafiəyə çıxarılması böyük cəsarət tələb edirdi. Bütün bunlara baxmayaraq, Baba müəllimin rəhbərliyi ilə dissertasiya işinin uğurla müdafiə olunduğunu qeyd etdi.

Sonda Baba müəllim çıxış edərək toplantı iştirakçılarına öz dərin təşəkkürünü bildirdi və qeyd etdi ki, onun nailiyyətləri kollektivin uğurlarıdır. "Mən təkbaşına heç nə edə bilməzdim. Nəyə nail olmuşamsa siz dostların və həmkarlarımın köməyi ilə olmuşam. Sizlərə və ürəyi bizimlə olan hər bir kəsə dərin minnətdarlığımı bildirir, can sağlığı və işlərinizdə müvəffəqiyyətlər arzulayıram. İnanıram ki, neft sənayesində Azərbaycan geofizikləri nəinki ölkə daxilində, həmçinin ondan kənarda da öz sözünü deyəcək. Bir daha təşəkkür edirəm".

***P.S.***

***Hörmətli Baba müəllim!***

***Sizi - həyat yolu mənalı-məzmunlu olan ziyalı insanı, öz alicənablığı, yüksək mədəniyyəti, əməksevərliyi və geofizika elminə sədaqəti ilə dərin hörmət qazanmış səmimi dostu və həmkarı bir daha səmimi qəlbdən təbrik edir, Sizə möhkəm can sağlığı, xoş və firavan günlər, yorulmaq bilməyən elmi fəaliyyətinizdə daha yüksək zirvələri fəth etməyi arzulayırıq!***

***Hafiz Şəkərov,***
***Naftqazelmitədqiqatlayihə İnstitutunun***
***Geofizika Departamentinin rəisi,***
***"Azərbaycanda Geofizika Yenilikləri"***
***Jurnalının redaksiya Heyətinin üzvü.***